# MƏN ONU HƏR ZAMAN YANIMDA HİSS EDİRƏM

***Azərbaycan ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi Kənan Vaqif oğlu Quliyevin (11 sentyabr 1992-ci il Naxçıvan Muxtar Respublikasınn Culfa şəhəri - 22 oktyabr 2022-ci il Qubadlı rayonu) həyat yoldaşı Aysel Quliyeva ilə müsahibə.***



*44 gün kimi qısa bir müddət ərzində əzmlə başlayıb Möhtəşəm Zəfərimizləbitməsinə baxmayaraq 30 il kimi uzun bir müddətdə həsrətində qaldığımız Qarabağımızı bizə qaytaran, qürurumuzu, fəxrimizi bərpa edən, ulularımızın ruhlarının şad olmasına vəsilə olan Vətən müharibəsindən 2 il keçsə belə o günlər, o acılı-şirinli xatirələr hələ də öz təzəliyini, tərliyini, təravətini qoruyub saxlayır və əmin ola bilərik ki, xalqımızın bu qəhrəmanlıq salnaməsi aradan neçə-neçə yüzilliklər keçsə də öz təravətini həmişə saxlayacaqdır.*

*Bu 2 il 5 il kimi, 10 il kimi, 100 il kimi uzun müddət deyil, amma bu müddət ərzində illərlə birgə hər şey dəyişib. Yuxularımızda belə görməyə həsrət qaldığımız Qarabağımız yuxuda deyil, igid Ali Baş Komandanımızın rəhbərliyi, uzaqgörən siyasəti, qəhrəman Azərbaycan övladlarının vətənsevərliyi sayəsində gerçəkdə özümüzə qayıdıb, Şuşamız dirçəlib, bütün dünya, eləcə də quyumuzu qazmağa çalışan erməni havadarları olan Qərb dövlətləri də bizim reallığımızla barışmağa məcbur olublar. Halbuki 2 il bundan əvvəl əcnəbi dövlətlərdə vətəndaşlarımız erməni mənfurları tərəfindən təhqir edilir, xaricdəki soydaşlarımızın evlərinə, ölkəmizinnümayəndəliklərinə hücumlar olunurdu. İndi isə bütün dünya bizə olan təəccüblərindən və tunc heykələ bənzər heyrət doğuracaq məğrurgörkəmimizdən diksinərək bizim beynəlxalq qanunlara əsaslanaraqqoyduğumuz tələblərə tabe olmağa məcbur olmuşdur. Halbuki 2 il bundan əvvəl, daha dəqiq desək,2020-ci il sentyabrın 27-nə qədər, eləcə də son yaxın tariximizdəkeçən bu 30 il ərzində hər şey başqa cür idi, belə deyildi. Buna səbəb olan bir amil varsa, o da 44 günlük şanlı Vətən müharibəsi, müharibədə Şəhidlərimizin və Qazilərimizin qanı, canı, Azərbaycan oğullarının qəhrəmanlığı bahasına qazanılan parlaq qələbəmizdir. Təbii ki, o vaxtdan elə də uzun müddət keçməyib deyə bu qəhrəmanlıq salnaməsinin hər anı sanki indi gözümüzün önündə baş verir kimi yadımızdadır.Ancaq yox, buna səbəb qısa müddət ya da uzun müddət deyil. Bu müharibədən və qazandığımız şanlı Zəfərimizdən neçə-neçə yüz illər keçirsə, keçsin, biz o 44 günü və o 44 gündə düşmən tapdağından azad etdiyimiz ana vətən torpaqlarını, qəlbimizdə daim yaşatdığımız 2908qəhrəmanımızı, eləcə də canlarından bir parçanı Vətən yolunda qurban etmiş Qazilərimizi, rəşadətli ordumuzun qüdrətli oğullarını, bir an olsun, unuda bilmərik. Onlar öz qəhrəmanlıqları ilə 200 illik bir tarixdə bizim köksümüzə əyilmişbaşımızı uca ediblərsə, bizim də boynumuzun bir borcu var,o da bu qanlı, qanlı olduğu qədər də şanlı döyüşləri yaddaşımızın tən ortasına Qobustan qayalarındakı yazılartək qazımaq, tariximizə həkk etməkdir. Təkcə bumu? Yox! Şəhidlərimizi, Qazilərimizi, müharibə iştirakçılarımızıheç bir zaman unutmamaq və onlara olan borcumuzu yerinə yetirməyə canla, başla, ürəklə, vicdanla həyatımızın sonuna qədər çalışmaq. Biz bilirik ki, üstündə gəzdiyimiz bu müqəddəs vətən torpağı haqq, ədalət və vətən sevgisi üçün zaman-zamanneçə-neçəsaysızhesabsız igidlərimizin, ərənlərimizin, cəngavərlərimizin, qəhrəmanlarımızın və sərkərdələrimizin qanı ilə sulanmışdır. Bunu öyrənmədən, bilmədən,-yada salmadan, yaddaşımıza həkk etməklə gələcək nəsillərə bu əvəzsiz mirası aşılamadan bu müqəddəs torpaq üzərində rahat gəzmək bizə haram olmalıdır. Vətən torpağının üstündə gəzməyimiz üçün vətən torpağının köksünə onun uğrunda sevəsevə əbədi köçən 2908 Qəhrəmanımızdan biri də qədim Naxçıvanımızın igid oğlu-Şəhid Kənan Quliyevdir.*

*Şəhid Kənan Vaqif oğlu Quliyev 11 sentyabr 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində anadan olmuşdur. O, 1998-ci ildə Culfa şəhəri, Məhərrəm Əsgəroğlu adına 2 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2009-cu ildə həmin məktəbi bitirmişdir. Sonra o, 2010-cu ilin oktyabr ayında Azərbaycan Silahlı Qüvvələrində həqiqi hərbi xidmətə çağırılmaqla hərbi xidmətə başlamış və 2012-ci ilin aprel ayında hərbi xidmətini başa vurmaqla ordudan tərxis edilmişdir. O, Silahlı Qüvvələrdə xidmətetmək arzusunu gerçəkləşdirmiş, 4 oktyabr 2019-cu ildə Xüsusi Təyinatlı Qüvvələrin kursunu uğurla başa vuraraq orada müddətdən artıq hərbi xidmətə başlamışdır. 2020-ci ilin 27 sentyabr-10 noyabr tarixlərində, cəmi 44 gün davam edən şanlı Vətən müharibəmizə Naxçıvandan qatılan qəhrəmanımız Kənan Quliyev Füzuli, Xocavənd və Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq döyüşlərdə fərqlənmişdir. O, xüsusi təyinatlı əsgər kimi düşmənin qorxulu yuxusuna çevrilmişdir. Tək istəyi döyüşlərdə doğmalaşaraq qardaşlaşdığı Şəhid olmuş döyüş yoldaşlarının qisasını alıb Qarabağı azad etmək olan Kənan Quliyevin özü də 22 oktyabr 2020-ci ildə qəhrəmancasına Şəhidlik Zirvəsinə yüksəlmişdir. O, doğulduğu Culfa şəhərində dəfn olunmuşdur. Şəhid Kənan Quliyev ölümündən sonra Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Qəhrəmanımızdan bizə canımız qədər əziz olan ailəsi, qəhrəmanlığı, cəsurluğu ilə azad etdiyi Qarabağı miras qalmışdır. Onun özü və qoyub getdiyi mirasları bizə göz bəbəyimiz qədər əziz olduğundan bizim hər birimiz bu əmanətləri elə göz bəbəyimiz kimi də qorumalıyıq, qoruyacağıq və qorumağa borcluyuq.*

*Şəhidimizin həyat və döyüş yolundan sonra sizə qəhrəmanımızın xanımı, onun qısa ömründə həyatının yoldaşı olmuş Aysel xanımla olan müsahibəni təqdim etmək istəyirəm.*

**- Salam. Xahiş edirəm, əvvəlcə, özünüzü təqdim edəsiniz.**

- Salam. Mən, Quliyeva Aysel Həsən qızı, qəhrəmanlığı, cəsurluğu ilə tarix yazan Xüsusi Təyinatlı Qüvvələrin MAHHXE qulluqçusu şəhid Quliyev Kənan Vaqif oğlunun həyat yoldaşıyam.

**-Şəhidimiz Kənan Quliyevlə ilk tanışlığınız və onunla ailə həyatı qurmaq qərarına gəlməyiniz barədə nə deyə bilərsiniz?**

- Kənanla ilk dəfə 2015-ci ilin aprel ayının 24-də tanış olmuşuq. Kənan sürücü kimi fəaliyyət göstərirdi. Həmin illərdə mən tələbə idim. Kənan sanki Allahın mənə verdiyi bir nemət idi. Kənan o qədər böyük ürəyə sahib biri idi ki, cənnəti bu dünyada qazanan insanlar sırasında onun adını çəkə bilərəm. Kənanın heç bir xoşagəlməzxasiyyəti, xarakteri yox idi. Sanki mənim nazımı çəkmək üçün Allah onu mənim bəxtimə yazmışdı.Həmişə Kənan mənə deyirdi ki, mən səninnazını çəkməkdən, qulluqda durmaqdan heç vaxt bezmərəm, təki Uca Allahımölüm,ayrılıq bəxş etməsin. Və dediyi kimi də oldu, onu məndən ölüm ayırdı. Bizim sadəcə cismimiz ayrılıb, mən onu hər zaman yanımda hiss edirəm.

**-Şəhidimizin ailədə, tanışları və dostları arasında xarakteri, xasiyyəti, davranışları, səmimiyyəti, münasibəti barəsində nə deyə bilərsiniz?**

- Kənan səmimi, mehriban, xoşxasiyyət, bir nəfərin qəlbinə dəyməyən, dost canlı, ailəcanlı, vətənsevər, sülhsevər, qayğıkeş biriidi. Bunu bütün səmimiyyətimlə deyə bilərəm ki, mənə bu ömür yenidən verilsəydi və ailə həyatımın cəmi1 il 6 ay müddətdə olacağını bilsəydim, mən yenə Kənanı sevər, yenə də onu böyük məmnuniyyətlə seçərdim. Kənan dostlar, qohumlar, tanış-biliş arasındamehribanlığı, səmimi münasibəti, mədəni davranışı ilə seçilən biri idi. Yerində zarafat etməyi sevən, deyib-gülən, şən biri idi. O həmdə qorxmaz, mərd, vətənsevər, hər an düşməndən qisas almaq arzusu ilə yaşayan biri idi. Onun qorxmaz, mərd biri olduğu döyüşə könüllü getməyindən də bəlli idi.Onu da qeyd edim ki, bu dünyada mükəmməl insan olmaq hər şəxsənəsib, qismət olmur. Məhz sadaladığım xüsusiyyətlərinəgörə də Kənan şəhidlik məqamına, zirvəsinə ucaldı. Mənim fikrimcə, Kənan kimi oğul bir daha bu dünyaya gəlməz.Kənan Vətən qoxuyurdu, namus, qeyrət qoxuyurdu, igidlik, qəhrəmanlıq, cəsurluq, kişilik, haqqədalət və şəhidlik qoxuyurdu. Şükür ki, Kənan kimi qeyrətli Vətən oğlunun xanımıyam. Mən bununla fəxr edir, qürur duyuram.

**- Şəhidimiz hərbi xidməti dövründə təlimlərdə tez-tez olurdumu, təlim zamanı sizinlə əlaqə saxlayırdımı, bununla əlaqədar nələri deyə bilərsiniz?**

-Bəli, Kənan hərbi təlimlərdə teztez olurdu. Aylarla çəkən təlimlərdə iştirak edirdi. KənanVətənini ailəsindən, həyat yoldaşından üstün tutdu və-Vətən müharibəsində döyüşə gedərkən də son sözü bu oldu ki, qardaşlarım müqəddəs döyüşdədir, dardadır, mən onların yanında olmalıyam... Heç vaxt işindən, getdiyi, keçdiyi təlimlərdən evdə söhbət açmazdı. Bəzən hərbi xidmət zamanı keçdiyi təlimlərdə qazandığı uğurlardan, nailiyyətlərdən ümumi söhbət açardı, hərbi sirr haqqında kəlmə belə kəsməzdi. Kənan cəldliyi və çevik hərəkətləri ilə başqalarından seçilirdi. Buna görə də idmana marağı çox idi. Həmişə qaçışlarda fəxri fərmanlar alaraq birincilik qazanırdı. Kənan sanki şəhidlik üçün doğulmuş, şəhidliküçün yetişmişdi. Çünki çox əməlisaleh, təmiz qəlbə, təmiz ürəyə sahib biri idi.

**- Vətən müharibəsi zamanı Kənanlasonuncu dəfə nə zaman və hansı formadaəlaqə saxlamısınız, həmin vaxt şəhidimiz hansı mövzuda söhbət etdi?**

- Kənan Vətən müharibəsinə gedən zaman evdən dağa gedirəm deyə çıxdı. Mən və ailəsi iki gün sonra xəbər tutduq ki, Kənan artıq Qarabağdadır. Kənan Füzuli, Xocavənd, Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edib. Biz Kənanla sonuncu dəfə danışanda o, mənə dedi ki, müharibədir, hər şey ola bilər, mətin dayan,nə olursa, olsun, qəti ağlama, qardaşlarım vətən savaşındadır, sözsüz ki, belə müqəddəs anlarda mən onların yanında olmalıyam. İnşəAllah, qalib əsgər kimi qayıdacağam... Amma Kənan sözünü tutmadı. O, dediyi kimi qayıtmadı. Çünki vətəni qarşısında verdiyi sözü həmişə bizə verdiyi sözdən üstün tutmuşdu. İndi də belə etmişdi. Mən isə indi də elə bilirəm ki, Kənan mənə dediyi kimi dağa gedib, o, qayıdacaq, biz yenə bütöv, tam ailə olacağıq.Əslində isə o, minilliklərin qarının, çovğununun, boranının təsir edə bilməyəcəyi, sarsıda bilməyəcəyi möhtəşəm, qürurlu, sarsılmaz, hər daşı, qayası alınmaz səngər olan möhtəşəm bir dağa çevrilib.

*(Davamı var)*



***Sevindik NƏSİBOĞLU,***
***9-cu sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***